**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASI**

*Əlyazma hüququnda*

**ASLAN ƏKBƏR OĞLU XƏLİLOV**

# ƏLƏKBƏR RZAQULİYEV YARADICILIĞININ BƏDİİ XÜSUSİYYƏTLƏRİ

**İxtisas: 6215.01 –** "Təsviri sənət"

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2017**

Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Telman İsmayıl oğlu İbrahimov**
*sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*

**Rəsmi opponentlər:** **Arif Şahbaz oğlu Hüseynov**
*Xalq rəssamı, professor*

**Günay Nizami qızı Qafarova**
*sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*

**Aparıcı təşkilat:** **Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutu**

Müdafiə 12 iyun 2017-ci il saat 11:00-da Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində yaradılmış FD.02.191 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az 1029, Bakı şəh., Heydər Əliyev prospekti 26, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat 12 may 2017-ci ildə göndərilmişdir.

**FD.02.191 Dissertasiya Şurasının**
**elmi katibi, sənətşünaslıq**
**üzrə fəlsəfə doktoru:** **X.Z.Əsgərova**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı.** XX əsr Azərbaycan təsviri sənətinin yüksək inkişafını şərtləndirən məşhur "altmışıncılar" nəslinin nümayəndələri arasında respublikanın Əməkdar rəssamı, görkəmli qrafika ustası Ələkbər Rzaquliyev (1903-1974) gerçəkliyin bədiiləşdirilməsində özünəməxsus estetik dəyərlər nümayiş etdirən sənətkarlardan olmuşdur. Azərbaycan rəssamları arasında başqalarına bənzəməyən bir tale yaşamağa məhkum olan Ələkbər Rzaquliyevin tuş gəldiyi həyat təzadlarına baxmayaraq sənət aləmində çox qısa müddətdə yaradıcı "mən"ini təsdiqləməsi başqalarında rəğbət oyada biləcək keyfiyyətdir.

Respublikanın iyirminci yüzilliyin əvvəllərində işğalından sonra ölkədə hakim olan kommunist rejiminə və mədəni məkandakı inkişafı tənzimləyən "sosialist realizmi" bədii prinsipinə bütün mənalarda tabe olmayan Ələkbər Rzaquliyev sənətdə öz ideallarına sadiq qalmışdır. O dövrün gənc rəssamları arasında ən müxtəlif mənəvi-psixoloji təzyiqlərə məruz qalmasına rəğmən öz yaradıcılığında qədim ənənələrə tapınaraq onları yeniləşdirməyə səy göstərməkdə israrlı olan Ələkbər Rzaquliyev davamlı həbsxana və sürgün həyatına baxmayaraq, bəraətindən sonra o qədər də uzun çəkməyən yaradıcılığı ilə dəzgah qrafikası sahəsində ənənə və müasirlik probleminin bədii həllinə nail olmuşdur.

O, hələ zamanında Xalq rəssamı Əzim Əzimzadənin ənənələrini yaradıcılıqla inkişaf etdirərək, öz realist əsərləri ilə istedadlı qrafik-rəssam kimi geniş şöhrət qazanmışdı. Belə ki, onun milli bədii qaynaqlara tapınan öz ifadə tərzi, bədii həll formasının ciddiliyi və sadəliyi ilə fərqlənən linoqravürləri təkcə bizim ölkəmizdə deyil, eyni zamanda bir sıra beynəlxalq sərgilərdə müvəffəqiyyətlə sərgilənmiş və təsviri sənətə layiqli töhfələr kimi qəbul olunmuşdu.

Etiraf edək ki, 28 illik ağır sürgün və həbsxana həyatı (1928-1956) keçirəndən sonra 53 yaşlı rəssamın gəncliyində başladığı yaradıcılıq axtarışlarına qayıtması yəqin ki, asan məsələ deyildi. Bu yaşda sənət zirvəsinə yüksələnlər nə qədər çox olubsa da, ömrünün bu çağında ciddi niyyətlə böyük sənət yoluna çıxanlar demək olar ki, olmamışdır. 1963-cü ildə Ələkbər Rzaquliyevin Bakıda ilk fərdi sərgisinin

təşkil edilməsi, daha sonra Moskvada nümayişi (1966), 1964-cü ildə isə təsviri sənətin inkişafına verdiyi töhfələrə görə "Azərbaycan SSR Əməkdar rəssamı" fəxri adına layiq görülməsi çoxları üçün gözlənilməz idi. Onun linoqravüra texnikasında yaratdığı "Köhnə Bakı" silsiləsi o vaxtlar bütün mənalarda Azərbaycan incəsənətində qədim şəhərə göstərilən yeni və bənzərsiz bədii münasibətin ən gözəl nümunəsi idi.

Əslində qeyd etdiyimiz bu dəyərləndirmələr onun iyirminci illərdə qəzəbinə tuş gəldiyi kommunist-bolşevik rejimi tərəfindən Ələkbər Rzaquliyev sənətinin gücünü, dünyaya özünəməxsus-bənzərsiz baxışının qəbulunun etirafı idi. Elə bu səbəb onun adının hələ sağlığında Azərbaycan təsviri sənətinin korifeyləri sırasına daxil edilməsini şərtləndirmişdi.

Lakin bütün bunların qarşılığında onun yaradıcılığının tədqiqinə və təbliğinə münasibət birmənalı olmamışdır. Belə ki, həyatı boyu peşəkar sənətşünasların diqqət mərkəzində olan rəssamın yaradıcılığına müəyyən müraciətlər olsa da, onun keşməkeşli həyatı və yaradıcılığını səciyyələndirən başlıca özünəməxsus cəhətlər ciddi tədqiq edilməmiş, əsərlərinin zəngin və özünəməxsus bədii-texniki məziyyətləri ictimaiyyətə – sənətsevərlərə lazımi səviyyədə çatdırılmamışdır.

Elə bunun özü həyat və yaradıcılığı ilə Azərbaycan incəsənətində bənzərsiz - dərin və silinməz iz qoymuş görkəmli qrafika ustasının irsinin bir araya gətirilməsini və əhatəli tədqiqinin aktuallığını şərtləndirir.

**Problemin işlənmə dərəcəsi.** Əməkdar rəssam Ələkbər Rzaquliyevin yaradıcılığına müxtəlif dövrlərdə müxtəlif tədqiqatçılar diqqət yetirmiş, onun yaradıcılığı ilə bağlı müəyyən araşdırmalar aparmışlar. Bu araşdırmalara Ələkbər Rzaquliyevin həyat və yaradıcılığına sənətşünas və jurnalistlər tərəfindən fraqmentar yanaşma xarakterli məqalələr daxildir. Bu mənada Paşa Hacıyev[1], Nürəddin

[1]Hacıyev P. Ələkbər Rzaquliyev // "Azərbaycan" jurnalı, 1963. № 12. s.158-161; Poetik qravüra ustası // "Elm və həyat" jurnalı, 1970, № 11. s.24-26; Realist əsərlər. "Bakı" qəz., 1963, 31 oktyabr, № 258 (1847); Rəssam hünəri. "Ədəbiyyat və İncəsənət" qəz., 1974, 26 yanvar, № 4 (1766); Zamanın boyaları. Rəssamın hünəri. Bakı.: Gənclik, 1979, s.138-141.

Həbibov[2], Mürsəl Nəcəfov[3], Ziyadxan Əliyev[4], Gülnarə Rəfiq[5], Çingiz Kərimov[6], Əsəd Quliyev[7] və b. dərc olunan məqalələrini qeyd etmək olar.

Bu məqalələrə adətən, rəssamın sürgündən azad olunub Bakıya qayıtdıqdan və yenidən yaradıcılıq fəaliyyətinə başladığı dövrdən etibarən təsadüf olunur. Belə ki, rəssamın anadan olmasının 60 illik yubileyi ilə əlaqədar 1963-cü ildə təşkil olunan “Köhnə Bakı” adlı ilk fərdi sərgisinin böyük uğuru onun sənət amalının və yaradıcılıq axtarışlarının düzgün olduğunu təsdiqlədi.

Çox tez bir zamanda sənətkarın şöhrəti Azərbaycanın hüdudlarını aşmışdır. Bu mənada onun yaradıcılığına xarici ölkələrin mətbuatında verilən yüksək dəyəri xatırlatmaq yerinə düşər. Almaniyada nəşr olunan “Bildende Kunst” (“Təsviri incəsənət”) jurnalının 1964-cü il 9-cu nömrəsində Ələkbər Rzaquliyevin yaradıcılığına həsr edilmiş məqalədə deyilir: “Rzaquliyevin sənətkarlığı çox parlaqdır. Rəssam həyatı olduğu kimi dərk edir, onun rəngarəngliyini ən sadə əşyalarda belə görür, hiss edir və yaradır. Onun emalatxanasında asılmış linoqravüralara təbəssümsüz baxmaq qeyri-mümkündür...”[8]. Məqalədə eyni zamanda rəssamın “Köhnə Bakı” qrafik silsiləsindən olan bir neçə qrafik lövhənin, xüsusilə “Kəlin nallanması” əsərinin təhlilinə geniş yer verilmişdir.

“Bakı” qəzetinin 16 yanvar 1967-ci il tarixli nömrəsində Ələkbər Rzaquliyevin həmin ildə “Творчество” jurnalında linoqravürlərinin dərc olunması və rəssam Telinqaterin Ələkbər Rzaquliyevin ünvanına yazılmış “Azərbaycanlı dostuma məktub”u da diqqətə layiqdir[9].

---

[2] Həbibov N. Həyat lövhələri. “Kommunist” qəz., 1967, 2 aprel; Qrafika sənətimizin tədqiqi. “Kommunist” qəz., 1971, 27 aprel; Rəssamlığımızın şöhrəti. “Kommunist” qəz., 1972, mart.

[3] Nəcəfov M. Ələkbər Rzaquliyev. “Köhnə Bakı”. Bakı, 1969; Ələkbər Rzaquliyevi xatırlayarkən // “İncəsənət” jurnalı. 1993, 17 mart; Unudulmaz sənətkar. “Ədəbiyyat və İncəsənət” qəz., 1974, 2 fevral, № 5 (1767).

[4] Əliyev Z. Dəzgah qrafikasında obrazlı – rəmzi ifadə vasitələri axtarışları // “Qobustan” jurnalı, 2008. №1; Köhnə Bakı mənzərələri. “Bakı” qəz., 1983, 5 fevral; Ələkbər Rzaquliyev – 100 // Qobustan jurnalı, 2005. №3; Köhnə Bakının vurğunu. “Panorama” qəz., 1997, 27 avqust. №163; Qara rəngin işığı. “Kaspi” qəz., 2016, 24 sentyabr.

[5] Gülnarə Rəfiq. Üç dəfə sürgün olunmuş rəssam. “Avropa” qəz., 2003, 3-9 may; 17-23 may.

[6] Kərimov Ç. Ələkbər Rzaquliyevin ağlı-qaralı dünyası. “525-ci qəzet” qəz., 2009, 26 sentyabr.

[7] Quliyev Ə. Bənzərsiz qrafika rəssamı // Qobustan, 2012. № 4/157.

[8] Quliyeva T. Alman jurnalı Azərbaycan rəssamı haqqında. “Ədəbiyyat və incəsənət” qəz., 1964, 3 oktyabr

[9] Telinqater S. Azərbaycanlı dostuma məktub. “Bakı” qəz., 1967, 16 yanvar.

Ələkbər Rzaquliyev haqqında ilk dəfə 1970-ci ildə Moskva sənətşünası İrina Sviridovanın[10], eləcə də 2013-cü ildə "Sərvət" albomlar silsiləsindən Sevda Həbibovanın yazdığı nisbətən tutumlu monoqrafiya[11] rəssamın yaradıcılıq irsinə arzulanan dərin və elmi sənətşünas münasibəti olmasa da rəssamın həyat və yaradıcılığının müxtəlif məqamlarına işıq salındığından maraq kəsb edir.

Rəssamın yaradıcılıq xüsusiyyətləri haqqında "Azərbaycan incəsənəti"[12], "Azərbaycan sovet qrafikası"[13] kitablarında qismən məlumat verilir. Lakin burada da Azərbaycan təsviri sənətinin inkişaf yolları nəzərdən keçirilsə də, Ələkbər Rzaquliyevin əsərlərindən səthi bəhs edilir. Bütün bunlar isə, sənətkarın yaradıcılığının dinamik inkişafı haqqında dolğun və obyektiv şəkildə elmi təsəvvür yaratmır.

2005-ci ildə yazdığı namizədlik dissertasiyasını bilavasitə "Azərbaycanda dəzgah qrafikasının yaranması və inkişaf yolları" mövzusuna həsr edən Rəşad Mehdiyevin tədqiqatında Ələkbər Rzaquliyevin çoxsaylı dəzgah qrafikası nümunələri, eləcə də Nigar Axundovanın 2014-cü ildə müdafiə etdiyi "Azərbaycan rəssamlarının yaradıcılığında sənaye mənzərəsi janrı" adlı dissertasiyada rəssamın sənaye mənzərələri ilə bağlı linoqravürləri təsvir və təhlil olunub.

Lakin yuxarıda göstərildiyi kimi, bu məqalələr, tədqiqatlar ümumi xarakter daşımış və rəssamın yaradıcılığını tam əhatə edə bilməmişdir. Belə ki, Əməkdar rəssam Ələkbər Rzaquliyevin yaradıcılığı bu vaxta qədər ətraflı və tam şəkildə işıqlandırılmamışdır.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi Azərbaycan təsviri sənətinin görkəmli nümayəndələrindən sayılan respublikanın Əməkdar rəssamı Ələkbər Rzaquliyevin yaradıcılığını həm ardıcıllıqla, monoqrafik izləmək və şərh etmək, həm də onun əsərlərinin daşıdığı dərin məna-məzmun yükünü və bu bədii-

---

[10] Свиридова И.А. Алекпер Рзакулиев. М.: «Советский художник». 1970 г. 82 с.
[11] Həbibova S. Ələkbər Rzaquliyev. "Sərvət". Bakı: "Şərq-Qərb" Nəşriyyat evi, 2013. 104 səh.
[12] Kərimov K.C., Əfəndiyev R.S., Rzayev N.İ., Həbibov N.D. Azərbaycan incəsənəti. Monoqrafiya. Bakı: İşıq. 1992. 344 səh.
[13] Tərlanov M., Əfəndiyev R. Azərbaycan Sovet qrafikası. Bakı:, Azərnəşr, 1963. 58 s.

estetik dəyəri aşkarlamağa xidmət edən dəst-xətt özünəməxsusluğunu müəyyənləşdirməkdir.

Tədqiqatın başlıca vəzifələrini isə aşağıdakı kimi müəyyənləşdirmək olar:

- Ələkbər Rzaquliyevin həyat və yaradıcılığını şəxsi kolleksiyalarda, yerli və xarici ölkə muzeylərində saxlanan əsərləri də daxil olmaqla xronoloji ardıcıllıq baxımından dəqiqliklə izləmək;
- Ələkbər Rzaquliyev yaradıcılığına əsasən qədim miniatür ənənələrinin təsirini əsaslandırmaq;
- Rəssamın əsərlərində qədim milli yaradıcılıq ənənələrinin sadiqliyini gerçəkləşdirən sənətkarlıq xüsusiyyətlərinin özünəməxsusluğunu göstərmək;
- Ələkbər Rzaquliyevin milli təsviri sənətimizi hansı özünəməxsus bədii – estetik dəyərlər daşıyıcıları ilə zənginləşdirməsini müəyyənləşdirmək;
- Rəssamın milli bədii ənənələri novatorcasına davam etdirdiyini əsaslandırmaq.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini respublikanın Əməkdar rəssamı Ələkbər Rzaquliyevin əsərləri və onun yaradıcılığı haqqında kitablarda, kataloqlarda, dövrü mətbuatda – qəzetlərdə, jurnallarda dərc olunan məqalələr, eləcə də rəssamın arxivində saxlanılan xatirə xarakterli yazılar təşkil edirlər.

Tədqiqatın predmetini isə rəssamın həyat və yaradıcılığı, onun əsərlərinin forma, məzmun, mövzu və janr xüsusiyyətləri, özünəməxsus fərdi dəst-xətt göstəriciləri təşkil edir.

**Tədqiqatın metodoloji əsasları.** Tədqiqatın metodologiyası mövzunun seçilməsi və onun XX əsr Azərbaycan təsviri sənəti kontekstində araşdırılması zərurəti ilə şərtləndirilir. Onun əsasını rəssamın zəngin yaradıcılığında yer alan mövzuların bədii xüsusiyyətlərinin üzə çıxarılması və ayrı-ayrı əsərlərin təhlili təşkil edir. Tədqiqat işində nəzərdən keçirilən problemlərin təhlilində milli və ümumbəşəri dəyərlərdən, sənətşünaslığın elmi-nəzəri qənaətlərindən faydalanılmışdır. Sistemli tarixi-müqayisəli metod Ələkbər Rzaquliyevin və onun dövrünün aparıcı rəssamlarının yaradıcılığını Azərbaycan təsviri sənətində dəzgah qrafikasının inkişafı

problemləri ilə əlaqələndirməyə imkan verir. Müqayisəli təhlil metodu dəzgah qrafikası sahəsində fəaliyyət göstərən rəssamların yaradıcılığını qarşılaşdırılmağa, tətbiq etdikləri çeşidli bədii-texniki vasitələrlə müxtəlif mövzularda yaratdıqları əsərlərin səciyyəvi xüsusiyyətlərini üzə çıxarmağa kömək edir. Eyni zamanda bu metod bədii-stilistik sənətşünaslıq təhlili çərçivəsində Ələkbər Rzaquliyevlə yanaşı, digər qrafika ustalarının da müqayisəyə cəlb edilmiş əsərlərinin obrazlı və stilistik həllinin səciyyəsini üzə çıxarmağa imkan verir. Araşdırılan əsərlərin ikonoqrafik, ikonoloji və semantik təhlili onların obrazlı həllinin bədii-estetik səviyyəsini aşkarlamağa şərait yaradır.

**Tədqiqatın sərhədləri.** Tədqiqat zamanı Azərbaycan qrafika sənətinin keçdiyi çoxəsrlik inkişaf mərhələsi xronoloji ardıcıllıqla araşdırılmış və bu haqda lazımi qeydlər dissertasiyada qısa şəkildə öz əksini tapmışdır. Eyni zamanda tədqiqat işində XX əsrdə fəaliyyət göstərən görkəmli qrafika ustalarının yaradıcılığına da müəyyən yer ayrılmışdır.

Əsasən 1960-2010-cu illərdə dövrü mətbuatda dərc olunan məqalələrdən, eləcə də kitab və kataloqlardan istifadə edilməklə rəssamın 1920-ci illərin sonundan (sürgündən əvvəlki dövr) 1970-ci illərin əvvəllərinədək (sürgündən sonrakı dövr) olan yaradıcılıq dövrü araşdırılıb, ətraflı şəkildə tədqiq edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi bilavasitə Ələkbər Rzaquliyev yaradıcılığına əvvəllər mövcud olmuş bütün yanaşmalardan fərqli münasibətlə şərtlənir və bütünlükdə bu fərqli yanaşma aşağıdakı müddəalarda öz əksini tapmışdır:

- Ələkbər Rzaquliyevin həyat və yaradıcılığı Azərbaycan sənətşünaslığında ilk dəfə olaraq tam və dolğun monoqrafik tədqiqat obyekti kimi kompleks şəkildə təqdim olunmuşdur;
- Görkəmli qrafika ustasının bu günədək dövrü mətbuatda və kitablarda işıqlandırılmayan müxtəlif səpkili qrafik əsərləri tədqiq edilmiş və sistemli şəkildə təhlil edilmişdir;

- Ələkbər Rzaquliyevin sürgündən əvvəlki və sonrakı yaradıcılıq fəaliyyəti əhatəli araşdırılmış və əldə olunan nəticələr müddəalar şəklində əks olunmuşdur;
- İlk dəfə olaraq Ələkbər Rzaquliyev yaradıcılığını səciyyələndirən bədii-texniki xüsusiyyətlərin özünəməxsusluğu aydın şəkildə müəyyənləşdirilmişdir;
- Rəssama şöhrət gətirən "Köhnə Bakı" qrafik silsiləsinə daxil olan əsərlər ilk dəfə olaraq xronoloji ardıcıllıqla sistemli şəkildə təhlil edilmişdir;
- Tədqiqat işi zamanı rəssamın ailə arxivindən istifadə edilməklə Ələkbər Rzaquliyevə aid olan əsərlərin adlarının və yaranma tarixinin yazılışında təsadüf edilən yanlışlıqlar aradan qaldırılmış və rəssamın öz dəsti-xətti ilə yazılmış arxiv sənədlərinə istinadən dissertasiyada əksini tapmış bütün əsərlərin yaranma tarixi və bədii-texniki göstəriciləri ilk dəfə olaraq dürüst şəkildə təqdim edilmişdir;
- Ələkbər Rzaquliyevin müxtəlif zamanlarda bədii görüntüyə gətirdiyi və bu günədək geniş ictimaiyyətə təqdim olunmayan, eləcə də elmi tədqiqata cəlb olunmayan portret əsərləri ilk dəfə olaraq ətraflı şəkildə tədqiq edilərək təhlil olunmuşdur;
- Tədqiqat işində qrafik rəssamın sovet dönəmində yerli və beynəlxalq sərgilərdə iştirakının ardıcıl şəkildə izlənilməsi və nümayiş olunmuş əsərlərinin bədii təhlili öz əksini tapmışdır.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Tədqiqat işi rəssamlıq təmayüllü ali və orta ixtisas təhsil müəssisələrində sənətşünaslıq ixtisası üzrə təhsil alan tələbələrə, eləcə də qrafik-rəssamların, xüsusilə qrafikanın linoqravüra texnikasında fəaliyyət göstərən rəssam-tələbələr üçün dəyərli tədris vəsaiti kimi istifadə oluna bilər. Eyni zamanda dissertasiya işi Ələkbər Rzaquliyev yaradıcılığı haqqında yazılmış ayrıca elmi-tədqiqat işi kimi, bu sahədə çalışan hər bir şəxs üçün dəyərli vəsaitdir.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmiş və kafedranın iclasında müzakirə olunmuşdur. Tədqiqatın əsas məzmunu, elmi mahiyyəti və əldə olunan nəticələr müxtəlif səviyyəli elmi konfranslarda dinlənilmiş, eləcə də müəllifin çap olunmuş bir sıra elmi məqalələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Tədqiqat işi giriş, üç fəsil, yeddi yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqatın məzmunu 114 səhifədə öz əksini tapmış, illüstrasiyalar isə albom şəklində dissertasiyaya əlavə kimi təqdim olunmuşdur.

## DİSSERTASİYANIN QISA MƏZMUNU

Dissertasiyanın "**Giriş**" hissəsində tədqiqatın aktuallığı, işlənmə dərəcəsi, məqsəd və vəzifələri, obyekti və predmeti, metodoloji əsasları, tədqiqatın sərhədləri, elmi yeniliyi, nəzəri və təcrübi əhəmiyyəti, eyni zamanda tədqiqatın aprobasiyası və strukturu haqqında məlumat verilir.

**"Ələkbər Rzaquliyev yaradıcılığında mövzu və janr axtarışları"** adlanan I fəsil iki – **"Ələkbər Rzaquliyevin rəssam kimi formalaşması"** və **"Rəssamın yaradıcılığında portret janrı"** yarımfəsillərini əhatə edir.

**"Ələkbər Rzaquliyevin rəssam kimi formalaşması"** yarımfəsli rəssamın yaradıcılığının 1920-1930-cu illərə təsadüf edən dövründən bəhs edir. Yarımfəsildə Ə.Rzaquliyevin (1903-1974) həyat və yaradıcılığının ilkin mərhələsinin əsas məqamları vurğulanır. Həmin illərdə təsviri sənət məkanında əcnəbi yaradıcılarla yanaşı Ə.Rzaquliyev, H.Mustafayev, A.Qazıyev, İ.Axundov, Nəzərli Nəcəf Rasim və b. yerli gənc rəssamların yaradıcılıq axtarışları ilə məşğul olduqları bildirilir.

Yarımfəsildə ailəsində rəssam olmasa da hələ uşaq yaşlarından rəsm çəkməyə böyük maraq göstərən Ə.Rzaquliyevin 1922-1924-cü illərdə Bakı Rəssamlıq Məktəbində pedaqoji fəaliyyətlə məşğul olan tanınmış rus-sovet heykəltəraşı S.Erzyanın studiyasında rəssamlıqla məşğul olduğu qeyd olunur. 1925-1928-ci illərdə isə Moskva Ali Bədii-Texniki Emalatxanalarında təhsil alan (rəngkarlıq üzrə - N.Udaltsova, A.Drevin; rəsm üzrə - S.Gerasimov, M.Rodionov, D.Şterenberq) rəssamın mütərəqqi baxışlarına görə həbs olunması onun təhsilinin IV kursdan yarımçıq qalmasına səbəb olur.

Ə.Rzaquliyevin hansı səbəbdən həbs olunub və sürgünə məruz qalmasının səbəblərini daha dəqiq öyrənmək üçün tədqiqat zamanı rəssamın oğlu Aydın

Rzaquliyevin şəxsi arxivində saxlanılan rəssamın öz dəsti-xətti ilə yazılmış xatirələrindən geniş istifadə olunmuşdur. Onun təhsil metodu keçmiş SSRİ məkanında duyulası mütərəqqiliyi ilə seçilən VXUTEMAS-ın (Moskva Ali Bədii-Texniki Emalatxanaları) o vaxtlar bir qədər "solçu" kimi qəbul olunan müəllimlərdən incəsənətin ideoloji asılılıqdan uzaq olması barədə dərs alması, burada müxtəlif ölkələrdən olan müstəqil düşüncəli yaradıcılarla görüşməsi buna müəyyən qədər zəmin yaratmışdı.

Bu dövrlərdə rəssamın məşhur fransız yazıçısı Anri Barbyüs və görkəmli Meksika rəssamı Diyeqo Rivera ilə tanışlığı da yadda qalandır: "D.P.Şterenberqin emalatxanasında çoxlu rəssamlar və yazıçı Anri Barbyüs, Meksika rəssamı Diyeqo Rivera və s. olardı. Diyeqo Rivera mənim "Mollaxana" və "Azərbaycanlı qadın" əsərlərimi gördü və dedi: "Bu gənc rəssama deyin ki, məktəbi atıb getsin və başladığı kimi işləsin. O düz yoldadır. Hər gün yorulmadan öz üzərində işləyə bilsə, düşünürəm ki, bu gəncin başlanğıcı, çox güman sonu da yaxşı olacaq"[14].

Qeyd edək ki, Ə.Rzaquliyevin "Mollaxana" əsəri naməlum səbəblərdən bizim günədək gəlib çatmasa da, "Azərbaycanlı qadın" əsəri hal-hazırda Azərbaycan Milli İncəsənət Muzeyinin daimi ekspozisiyasını bəzəyir. "Azərbaycanlı qadın" (1926) əsəri yaradıcılığının erkən dövründə rəngkarlıq sahəsində çalışan görkəmli rəssamın ilk uğurlu əsərlərindəndir. Maraqlı kompozisiyaya malik tablo eyni zamanda özünün rəng həlli ilə də diqqəti cəlb edir. Belə ki, başında boğça, iri gözlü, çatma qaşlı qadının göy zolaqlı çarşabı şəkəri rəngli fon – yerliklə xüsusi təzad, eyni zamanda cəlbedici harmoniya yaradır. Əslində rənglərə bu cür münasibət onun miniatür üslubundan yaradıcılıqla faydalandığını əks etdirir. Təsvir edilən obrazın tamaşaçı tərəfindən daha yaxşı qavranılması üçün rəssam tabloda əks etdirdiyi qadını öndə – iri planda verməklə onun xarakteristikasının qabarıqlığını şərtləndirmişdir. Yeri gəlmişkən vurğulayaq ki, məna-məzmun daşıyıcıları olan personajları ön plana çəkmək, təsvir etdiyi obrazları daha canlı və qabarıq şəkildə əks etdirmək Ə.Rzaquliyev yaradıcılığının əsas bədii xüsusiyyətlərindəndir. Əsərdə rəssama

---

[14] Aydın Rzaquliyevin şəxsi arxiv materialı.

məxsus ikinci bir səciyyəvi cəhət də vardır ki, bu da fonun kompozisiyanı tamamlayacaq müxtəlif süjetlər, detallar, mənzərə – memarlıq abidələri ilə zənginləşdirilməsidir. Arxa planda şərti təsvir edilmiş məişət səhnəsinin – paltar yuyulması və quyudan su çıxarılmasının təsviri bu mənada diqqətəlayiqdir. Ümumiyyətlə, istər portretlərində, istərsə də məişətlə bağlı qrafik lövhələrində rəssam bu cür kompozisiya üsulundan uğurla istifadə etmişdir.

Rəssamın erkən yaradıcılıq dövrünə aid olan əsərlərindəki təbiilik, qədim şəhərin milli adət-ənənələrinin əksi, köhnə Bakının xarakterik tipləri və onların gündəlik məişətinin bədii görüntüsü ona sonradan şöhrət gətirəcək əsərlərin əsas səciyyəvi cəhətləridir. Bütün bu bədii məziyyətləri onun 1927-ci ildə qara tuşla çəkdiyi "Ağ neft satan", "Balıq satan", "Çəkmə silən" və "Musiqiçilər" rəsmlərində müşahidə etmək mümkündür.

Bu əsərlər Azərbaycanda yenicə formalaşmağa başlayan gənc rəssamlar nəslinin milli mövzulara maraq göstərməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Xatırladaq ki, 20-30-cu illərdə gənc Azərbaycan rəssamlarının (Q.Xalıqov, A.Qazıyev, S.Salamzadə, H.Mustafayev, R.Mustafayev, Ə.Rzaquliyev və b.) qədim milli bədii ənənələrə yeni nəfəs vermək istəyi Kreml ideoloqlarını çox narahat etmiş və dolayısı həyata keçirilən təpkilərlə onların bu yoldan çəkindirilməsinə səy göstərilmişdi...

Rəssamın ilk əsərləri iyirminci illərin axırlarında Moskva və Bakıda təşkil edilmiş rəssamlıq sərgilərində göstərilmişdir. 1927-ci ildə Moskvada dəmiryolçuların sərgisində iştirak edən rəssamın əsərləri müsbət rəy alsa da onun məşhur rəssam olmaq istəyi, yaradıcılıq arzuları – planları gözlənilmədən 1928-ci ildə pozulur. Belə ki, o, mütərəqqi baxışlarına görə məktəbdən kənarlaşdırılmış və daha sonra həbs olunub sürgünə göndərilmişdir.

Onun həbsxana və sürgün həyatı 1956-cı ilə kimi davam etmişdir. Yalnız həmin ildə bəraət alan rəssam müstəqil yaradıcılıqla məşğul olmaq imkanı əldə etmişdir. Təbii ki, 25 illik sürgün həyatı öz sözünü demişdi. Rəssamın fırça tutan barmaqları

sözünə baxmırdı. Ən dözülməzi də o idi ki, rəssam bu illər ərzində rəng duyumunu itirmişdi.

Doğrudan da 1950-ci illərin ortalarından etibarən ömrünün sonunadək davamlı olaraq yorulmaq bilmədən bir-birindən maraqlı və cəlbedici linoqravürlər silsiləsi yaratmış rəssam çox qısa zamanda özünəməxsus dəst-xəttə malik qrafika ustası kimi tanınmışdır. Rəssamın 1963-cü ildə respublika Mədəniyyət Nazirliyi Mərkəzi sərgi salonunda təşkil olunan "Köhnə Bakı" adlı ilk fərdi yaradıcılıq sərgisinin böyük uğuru onun sənət amalının və yaradıcılıq axtarışlarının düzgün olduğunu təsdiqlədi.

Ə.Rzaquliyevin yaradıcılığının çiçəklənmə dövrünü təşkil edən altmışıncı illərdə fəaliyyət göstərən dəzgah qrafikası ustalarının (Nadir Axundov, Rasim Babayev, Bəyim Hacıyeva, Altay Hacıyev, Cəmil Müfidzadə) yaradıcılıq xüsusiyyətlərini müqayisə etməli olsaq, onların bədii ifadə axtarışlarında müəyyən oxşar və fərqli cəhətlərin olduğunu müşahidə etmiş olarıq. Belə ki, əgər N.Axundov, A.Hacıyev və C.Müfidzadənin lövhələrində detal – cizgi intensivliyi qabarıq duyulursa, əksinə R.Babayev, B.Hacıyeva və Ə.Rzaquliyevin əsərlərində ağ səthdən geniş istifadə, ayrıntıların ifadəli siluetinə üstünlük verilir. Bunu da qeyd edək ki, Ə.Rzaquliyevin özünəməxsus ifadəli siluetləri məhz milli-mənəvi dəyərlərdən, bədii prinsiplərdən gələn xüsusiyyətlərdir.

Yuxarıda vurğuladığımız yüksək bədii məziyyətlərlə yanaşı görkəmli qrafika ustasının əsərlərində hər şeydən əvvəl peşəkarlıq səviyyəsi, sənətkarlıq məharəti, həyata yaxınlıq, incə yumor, mövzunun linoqravüra texnikasının yüksək tələbləri səviyyəsində həlli də diqqəti cəlb edən əsas səciyyəvi cəhətlərdir.

Ə.Rzaquliyevin xoşbəxtliyi onda idi ki, o heç vaxt həyat eşqini, gələcəyə inamını itirməmişdi. Bəlkə elə buna görə də qısamüddətli yaradıcılıq dövründə Azərbaycan rəssamları arasında öz dəsti-xətti ilə seçildi, sevildi. Özündən sonra isə zəngin bir irs qoyub getdi.

**"Rəssamın yaradıcılığında portret janrı"** adlanan II yarımfəsildə Ə.Rzaquliyevin bu sahədə əldə etdiyi nailiyyətlərdən söz açılır. Rəssamın portretlər qalereyasını onun doğmaları, müasirləri, avtoportretlər, elm və mədəniyyət xadimləri,

ictimai-siyasi xadimlər, əmək qəhrəmanları, eləcə də bizi bu günə kimi duyğulandırmaqda davam edən ədəbi obrazlar – yazıçı və şairləri əks etdirən portret – kompozisiyaları təşkil edir. Bu cür əsərlərdə Ə.Rzaquliyev indiyə kimi obrazlarına dəfələrlə müraciət edilmiş yaradıcı insanlara (S.Vurğun, C.Məmmədquluzadə, C.Cabbarlı və b.) özünün bədii münasibətini özünəməxsus forma-biçimdə nümayiş etdirmişdir.

Ə.Rzaquliyevin portretlərində əks olunan obrazlar yalnız zahiri cizgilərin dəqiqliyi ilə deyil, həm də onların daxili aləminə yaradıcı nüfuzetmənin yaddaqalan ifadəsi ilə diqqət çəkirlər. Bu mənada rəssamın anasını əks etdirən “Anamın portreti” adlı (1961) əsəri sadə kompozisiya quruluşu və ifadəliliyi ilə seçilir.

Ə.Rzaquliyevin portretləri arasında “Tələbələr silsiləsi” xüsusilə seçilir. Belə ki, bu qrafik silsilədə yer alan bütün tələbə qız obrazları demək olar ki, rəssamın qızı Adilə xanımı əks etdirir. “Tələbə qız dərs hazırlayarkən”, “İstirahət edərkən”, “Kimyaçı qız”, “Eyvanda” və s. əsərləri bu qəbildəndir.

Ə.Rzaquliyevin yaradıcılığında olduqca maraqlı bədii həllini tapmış milli Azərbaycan qadını obrazını əks etdirən portretlər də vardır ki, onlar öz növbəsində milli – dekorativ xüsusiyyətləri ilə seçilirlər. Bu mənada onun “Təzə gəlin” (1965) və müxtəlif illərdə müxtəlif versiyalarda yaradılmış “Azərbaycan madonnası” (1971, 1972) əsərlərini qeyd etmək olar.

Ə.Rzaquliyevin “Bizim uşaqlar” silsiləsi adı altında bir çox texnikalarda (quaş, sulu boya, linoqravüra) işlədiyi azyaşlı qız və oğlan uşaqlarının obrazını sərgiləyən “Fikirləşən qız” (1962), “İnciyən qız” (1962), “Televizor qarşısında” (1962), “Televizora baxan oğlan” (1962), “Qızım Sevda” (1963), “Şəkil çəkən qız” (1965) kimi qrafik portretləri xüsusilə seçilir. Bu portretlərdə rəssamın qızı Sevda və oğlu Aydın təsvir edilmişdir. Bunu da əlavə edək ki, rəssamın doğmalarını əks etdirən bu portret əsərlərində personajların obrazı öz təbiiliyi və sadəliyi ilə tamaşaçısını heyrətləndirir.

Ə.Rzaquliyevin portret yaradıcılığında 1960-cı illərdə ərsəyə gətirdiyi avtoportretləri də vardır ki, surətin əsas ifadəli cizgiləri və naturalizmi ilə diqqəti cəlb

edir. Rəssam eyni zamanda avtoportretlərində ümumiləşdirməyə və obrazın əsas cəhətlərinin göstərilməsinə də böyük əhəmiyyət vermişdir. 1962-ci və 1968-ci illərə aid olan "Avtoportret"lərdə bu xüsusiyyətlərə rəssam xüsusi önəm vermişdir.

Ə.Rzaquliyevin portret yaradıcılığında "Bizim sevimli yazıçılar" adı altında Azərbaycanın bir neçə görkəmli elm və mədəniyyət xadimlərinin, eləcə də yazıçı – şairlərinin qravür silsilələri önəmli yer tutur. Yazıçı – tərcüməçi Mikayıl Rzaquliyev (1960), xalq şairi Səməd Vurğun (1961), görkəmli dramaturq Cəfər Cabbarlı (1961), satirik şair Mirzə Ələkbər Sabir (1962), Nəriman Nərimanov (1962, 1967) və Cəlil Məmmədquluzadəyə (1966) həsr olunmuş portretlər bu qəbildəndir. Rəssam həmin portretlərdə dərin psixoloji ifadəyə malik bitkin fərdi surətlər yaratmağa nail olmuşdur.

Ə.Rzaquliyev portret yaradıcılığında elm və mədəniyyət xadimləri ilə yanaşı siyasi-ictimai xadimlərin də obrazlarına müraciət etmişdir. Sosialist inqilabının rəhbəri V.İ. Leninin, ictimai-siyasi xadim, yazıçı, publisist Nəriman Nərimanovun, eləcə də kommunist partiyasının görkəmli xadimlərindən olan Dadaş Bünyadzadənin obrazlarını əks etdirən portret əsərləri bu qəbildəndir.

Portret janrında uğurlu axtarışlar edən Ə.Rzaquliyevin əmək adamlarının obrazlarına müraciət etməsi də bir növ onun müasirlərinə göstərdiyi diqqətin təcəssümü idi. Əmək qabaqcıllarının portretlərini yaratmaq sahəsində ciddi axtarışlar aparan Ə.Rzaquliyev "Qabaqcıl balıqçı qadın" (1960-cı illər), "Mühəndis Rəsulovanın portreti" (1960-cı illər), "Azərbaycan balıqçıları silsiləsi"ndən olan "Astaralı balıqçı Xədicə Əliyevanın portreti" (1962), "Astaralı çayçı qadınlar: Mənsumə Qəmbərova və Maral xanım Hüseynova" (1962) adlı linoqravürlərində yurdumuzun əməksevər qadınlarını, "Əyirici Yusif Kərimovun portreti" (1960-cı illər), "Azərbaycan balıqçıları silsiləsi"ndən olan "Astaralı gənc balıqçı" (1962), "Astaralı balıqçı Ağa Mirzənin portreti" (1962) və "Astaralı qocaman balıqçı Cəlil Məmmədovun portreti" (1966) kimi əsərlərdə isə zəhmətkeş kişi obrazlarını olduqca ifadəli əks etdirmişdir.

Sonda demək lazımdır ki, Ə.Rzaquliyevin zənginliyi ilə seçilən portretlər qalereyasında özünəməxsus mənəvi-psixoloji və bədii estetik məziyyətləri özündə parlaq əks etdirən obrazlar kifayət qədərdir. Onların diqqətçəkən xüsusiyyəti sənətkarın ikonoqrafik dəqiqliyi əldə etməklə, bu portretlərdə hər bir obraza xas olan səciyyəvi cəhətləri cəlbedici mənəvi qaynağa çevirə bilməsidir.

Tədqiqatın **"Ələkbər Rzaquliyev yaradıcılığında "Köhnə Bakı" silsiləsi və onun bədii xüsusiyyətləri"** adlanan II fəsli onun yaradıcılığında önəmli yer tutan "Köhnə Bakı" silsiləsinə həsr olunub. Bu fəsil də öz-özlüyündə iki **-** "**Köhnə Bakı" silsiləsində məişət mövzusu"** və **"Rəssamın yaradıcılığında köhnə Bakı tipləri"** yarımfəsillərindən ibarətdir.

Birinci yarımfəsildə rəssamın məişətlə bağlı lövhələrindən söz açılır. Çəkdiyi çoxsaylı əsərlərdə xalqının uzaq-yaxın keçmişinə qeyri-adi sevgisini sərgiləyən rəssam özünün tarixə və milli etnoqrafiyaya bələdçiliyini yüksək səviyyədə ifadə etdiyindən bu əsərləri "Qədim Bakının bədii ensiklopediyası" adlandırmaq da olar. Rəssam bir çox, o cümlədən də məişət mövzusunu hərtərəfli açmaq, onun tamaşaçı üçün maraqlı olmasına nail olmaq üçün müraciət etdiyi motivlər arasında onun uşaqlıq illərinin xatirələrini özündə yaşadan mollaxanaya həsr olunmuş lövhələr maraq doğurur. Bunu rəssamın keçmiş müşahidələrini bir-neçə əsərdə - "Mədrəsə" ("Köhnə məktəb") (1961), "Mədrəsədə cəza" (1962), "M.Ə.Sabir mollaxanada" (1961) linoqravürlərində əks etdirməsi də təsdiqləyir.

Müasirlərinin və yaxınlarının dediyinə görə, Ə.Rzaquliyevin göz yaddaşı çox güclü olmuşdur. Rəssamın köhnə Bakının uşaqlıq təsəvvüründə illərlə qoruyub saxlaması və çox-çox sonralar onu linoqravürlərdə böyük sənətkarlıqla canlandıra bilməsi də bunu təsdiqləyir. Bu mənada rəssamın 1965-ci ildə çəkdiyi "Azançı" lövhəsi həm də bu mövzunun Azərbaycan təsviri sənətində ilk bədiiləşdirilmiş nümunəsidir. Ə.Rzaquliyevin uzun müddət ərzində korşalmayan yaddaşı bizi yenə də xəyalən əvvəlki Bakıya qaytarır...

Zamanında rəsm çəkdiyinə görə din xadimlərinin xeyir-dualarını ala bilməsə də, rəssam onların gün ərzində bir-neçə dəfə toplaşıb məhəllə məscidlərində namaz

qılmalarına maraqla tamaşa etmişdi. Onun 1965-ci ildə ərsəyə gətirdiyi "Namaz" və "Mollanı kəndə aparırlar" əsərləri də həmin illərin xatirələrindən süzülüb gələn motivlərdir.

Qeyd edək ki, XX əsrin əvvəllərində Bakıda əhalinin suya olan tələbatını ödəmək məqsədilə küçələrdə su satanların və ovdanların xüsusi rolu vardır. Ümumiyyətlə su mövzusu Ə.Rzaquliyevin ən çox müraciət etdiyi mövzulardandır. Bu mənada onun "Suya gedərkən" (1960-cı illər), "Bulaq başına" ("Ayaqüstü söhbət") (1962), "Suçular" (1962, 1966), "Pirşağıda quyu başında" (1964), "Suçular İçərişəhərdə" (1965), "Quyu başında. Ovdan" (1968), "Ovdan" (1970) və "Suçular" (1971) linoqravürlərini qeyd etmək olar. Bu əsərlər özünəməxsus fomra-biçimi ilə yanaşı tarixi – etnoqrafik əhəmiyyəti ilə də seçilir.

Rəssamın mövzu rəngarəngliyi ilə seçilən süjetli kompozisiyaları içərisində "Kəlin nallanması" (1963), "Atın nallanması" (1963), "Kəllərin döyüşü" (1965), "Dəvənin kəsilməsi" (1968), "Dəvələrin döyüşü" (1971), eləcə də "Ayı oynadan" (1971) və "Meymun oynadan" (1971) linoqravürləri xüsusilə fərqlənir.

Ə.Rzaquliyevin linoqravürləri bu texnikanın yeni ifadə imkanlarını üzə çıxartmaqla yanaşı, milli təsviri sənət xəzinəmizə əvəzsiz töhfələr hesab olunurlar. Rəssamın cəmisi iki – ağ və qara rəngin vasitəsilə yaratdığı "bədii möcüzə"ləri də obrazlı desək, onun təzadlı həyat yaşantılarının ifadəsi hesab etmək olar. Amma onun bir çox əsərlərində bu "ağ-qaralı"ğın kifayət qədər işıqlı və nikbin tutum almasını da görürük. Onun milli və dini adət-ənənələrimizlə bağlı qrafik lövhələri bunun əyani təsdiqidir. "Gəlin evinə qurbanlıq" ("Şirni") (1963) və "Hədiyyələrlə gəlin evinə" (1965) linoqravürləri bu mənada diqqətəlayiq əsərlərdəndir.

Müraciət etdiyi çeşidli motivlərin cəlbedici və təsirli bədii tutumunun əldə olunmasına səy göstərən Ə.Rzaquliyev bilavasitə miniatür üslubunun müxtəlif bədii məziyyətlərindən, bir az da primitiv sənətdən gəlmə bədii-estetik məziyyətləri yeni və daha müasir biçimdə təfsir etməklə, əsərlərin tarixi-etnoqrafik tutumunu gələcəyə ünvanlanmış inandırıcı bədii sənədə çevirməyə nail olmuşdur. Bu linoqravürlərdə

müşahidə olunan kompozisiya yığcamlığı, siluet ifadəliliyi və cizgi oynaqlığı bədii təzadlar kontekstində şərh olunduğundan hər bir əsər təsirli baxılır.

Ə.Rzaquliyev yaradıcılığının bədii xüsusiyyətlərinin özəyini təşkil edən əsas amillərdən biri də rəssamın əsərlərinin Qacarlar dövrü incəsənəti ilə bağlılığıdır. Belə ki, rəssamın əsərlərində müşahidə etdiyimiz sadəlövhlük, dekorativlik və aktiv konturdan istifadə edilməsi bilavasitə Qacarlar dövrü incəsənətinə xas xüsusiyyətlərdəndir. Nəzərə alaq ki, altmışıncı illərin sovet qrafikası bu səpkidə deyildi. Çünki həmin dövrün qrafikası akademik prinsiplər əsasında qurulmuşdu. Ə.Rzaquliyevin qrafikası isə akademik prinsiplərdən tamamilə uzaq idi. O daha çox əsərlərində müəyyən stilizasiyalara yol vermişdi. Lakin bu xüsusiyyəti rəssamın bütün əsərlərinə aid etmək olmaz. “Köhnə Bakı” silsiləsində isə retrospektiv üslubda işləyirdi. Daha geniş mənada desək, XIX əsrin sonu – XX əsrin əvvəllərinə aid olan qrafik üsula müraciət etdi. Çünki rəssamın bu mövzunu, bu məzmunu müasir dillə ifadə etməsi məqsədəuyğun olmazdır. Bədii forma məzmunu inkar edəcəkdi. Əlbəttə, bunu da nəzərə almaq lazımdır ki, Ə.Rzaquliyevin əsərlərinin əksəriyyəti yaddaş əsasında yaradılırdı. Nəyi ki, bir başa görürdü onları müasir qrafika tərzində işləyirdi. Xatirələr əsasında çəkdiyi əsərlərdə isə retrospektiv üsluba, stilizasiyaya keçirdi. Qeyd etdiyimiz bu nüanslar Ə.Rzaquliyevin unikallığını şərtləndirən amillərdəndir.

Sonda deyək ki, rəssamın keçmişimizə bədii münasibəti təkcə motiv orijinallığı ilə yox, həm də obrazlara, məkana fərqli münasibəti ilə seçilir.

Ə.Rzaquliyevin köhnə Bakı ilə bağlı qrafik irsinin geniş şöhrət tapmasının kökündə heç şübhəsiz o qədər də uzaq olmayan keçmişimizə xəyali qayıdışının nəticələrində kifayət qədər çoxsaylı obrazların-tiplərin yer almasıdır. Bu barədə **“Rəssamın yaradıcılığında köhnə Bakı tipləri”** adlı ikinci yarımfəsildə söz açılır.

Belə tiplərin çoxluğunu və bədii tutumuna görə yaddaqalanlığını Azərbaycan təsviri sənətində yalnız dahi Əzim Əzimzadənin yaradıcılığı ilə müqayisə etmək olar. Qeyd edək ki, “Əzim Əzimzadə yaradıcılığında əsasən ifşaedici tənqid və məzəmmət hədəfinə çevrilən obrazlara Ələkbər Rzaquliyevin əsərlərində münasibət

nəzərəçarpacaq dərəcədə dəyişmişdir. Belə ki, onun səmimiyyətlə dolu yumoru və incəliyi ilə seçilən istehzası obrazlara xüsusi bir ifadəlilik bəxş etmişdir”[15].

Əgər “Köhnə Bakı” linoqravürlər silsiləsinin əsasını təşkil edən tipajların bədii həllində rəssamın hansı üsluba üstünlük verdiyini də dəqiqləşdirməli olsaq, onda onların sadə və milli ənənələr ruhunda yaradılmasını xüsusilə vurğulamaq lazımdır. Həm də əlavə edək ki, klassik realist-gerçəkçi ənənələrin bədii ifadə metodlarına həm Bakıda, həm də Moskvadakı illərdə kifayət qədər yiyələnən Ə.Rzaquliyev sonda onlara yaradıcı yanaşmaqla, milli motivlərin bədiiləşdirilməsində məhz əski mənəvi dəyərlərimizə tapınmağa üstünlük vermişdir. Belə ki, onun duyulası ümumiləşdirmə və stilizələrlə, xətlərin axıcılığı və forma-biçim lakonikliyi ilə ağ səthdə təqdim etdiyi hadisə və motivlər, xüsusilə də fərdi cizgilərə bələnmiş çoxsaylı tiplər miniatürlərdə olduğu kimi cəlbedicilidirlər. Doğrudan da çox vaxt tipləri ətraf mühitdən təcrid etməklə bədiiləşdirən rəssam, bununla da onları səciyyələndirən axıcı ritmi və qrafik plastikanın özünəməxsusluğunun duyulan olmasını şərtləndirmiş olmuşdur...

Həmin tipləri səciyyələndirməyə, bədii-estetik dəyərlərini müəyyənləşdirməyə keçməzdən əvvəl demək lazımdır ki, doğrudan da köhnə Bakı mövzusuna, xüsusilə də “Köhnə Bakı” silsiləsindən qırmızı xətt kimi keçən obrazların-tiplərin yaradılmasına qərar vermək yaradıcılıq baxımından asan məsələ deyildi. Yuxarıda da qeyd etdiyimiz kimi, hələ otuzuncu illərdə rəssamlığımızda fenomen kimi dəyərləndirilən Ə.Əzimzadə məşhur “Yüz Bakı tipi”ni yaratmışdı. Bu doğrudan da bir yaradıcılıq cəsarəti idi. Rəssamın şəxsi arxivi ilə tanışlıq və onun müasirləri ilə söhbətlər göstərir ki, “Köhnə Bakı” qrafik silsiləsini yaratmaq rəssamın tələbəlik illərində ən böyük arzusu olmuşdur. Məhz “Köhnə Bakı”nın böyük uğuru da buradan qaynaqlanır. Belə ki, kifayət qədər əhatəli və rəssamın davamlı olaraq ilham qaynağı olan bu mövzu ilə yalnız uzun müddət baş-başa qalmağın nəticəsində bu cür kamil sənət nümunələri yaratmaq mümkün idi.

“Köhnə Bakı” silsiləsinə daxil olan qədim İçərişəhərin, eləcə də bölgələrin tipləri özünəməxsusluğu ilə seçilir. Bu tiplərin hər birinin səciyyəvi xüsusiyyətlərini

---

[15] Əliyev Z. Köhnə Bakının vurğunu. “Panorama” qəz., 1997, 27 avqust. №163

qabartmağa çalışan sənətkar onları bir qayda olaraq məşğuliyyətlərinin ifadəçisi tutumunda göstərmişdir. Bu mənada onun "Balıq satan" (1962), "Toyuq satan" (1963), "Ağ neft satan" (1962, 1967), "Küçə bərbəri" (1962), "Nehrə çalxalayan qadın" (1963), "Çoxarvadlı" (1963), "Xırdavatçı İçərişəhərdə" (1963), "Fənərçi" (1964), "Çəkmə silən" (1966), "Bıçaq itiləyən" (1972), "Şüşə salan" (1972) və s. əsərlərinin adını çəkmək olar.

"Köhnə Bakı" silsiləsindəki obrazlar qalereyasında qadınlar da geniş yer tutur. Bu mənada rəssamın müxtəlif illərdə çəkdiyi "Hamama gedən qadın" (1961), "Dənizdən gələn qadın" (1963), "Dənizə gedən boğçalı qadın" (1966), "Su gətirən qız" (1966) və s. lövhələrdə görüntüyə gətirilən qadın obrazlarında bir-birindən fərqli zahiri görkəm və məna-məzmun daşıyıcılığı, eləcə də fərdi tip-obraz əlamətləri olduğundan onlar diqqət çəkirlər.

Ə.Rzaquliyevin tipləri arasında musiqi ruhuna bələnmiş milli musiqiçi və aşıq tiplərini canlandıran "Zurnaçılar" (1960), "Musiqiçilər" (1962), "Gənc aşıq oxuyur" (1962), "Saz çalan aşıq qız" (1960-cı illər) və "Mütrüb" (1962) kimi poetik linoqravürlərini də Azərbaycan təsviri sənətində dahi saz-söz xiridarına həsr olunmuş uğurlu əsərlərdən hesab etmək olar.

Rəssamın müxtəlif tiplərin bədiiləşdirilməsinə yönəli əsərləri etnoqrafik material kimi də böyük əhəmiyyət kəsb edir. "Köhnə Bakı" qravürlər silsiləsinə daxil olan tip-obrazlardakı cizgi və ünsürlər keçmiş həyatımızdan, həm də adət-ənənələrimizdən, etnoqrafiyamızdan-geyimlərimizdən söhbət açır. Odur ki, bu silsilə rəssama böyük şöhrət gətirmiş və onu hər yerdə tanıtmışdır.

Əgər Ə.Rzaquliyevin müşahidələri və yaradıcı təxəyyülü sayəsində yaratdığı obraz-tiplərin əhəmiyyətini bir qədər də elmi yanaşma ilə dəyərləndirməli olsaq, onda əslində tarixiliyi birmənalı olan bu surətləri Bəhruz bəy Kəngərlinin məşhur "Qaçqınlar" silsiləsi və Əzim Əzimzadənin heç vaxt əhəmiyyətini itirməyəcək "Yüz Bakı tipi"ndə yer alan obrazlarla müqayisə etmək yox, bərabər tutmaq olar. Belə ki, hər üç sənətkarın yaratdıqları koloritli və reallığı-inandırıcılığı birmənalı olan əsərləri

xalqımızın XX yüzillikdə yaşadığı hadisələrin unudulmalı olmayanlarını gələcək nəsillərə ötürə biləcək bədii-tarixi sənədlərdir.

Tədqiqatın son – üç yarımfəsildən ibarət üçüncü fəsli isə **"Ələkbər Rzaquliyev yaradıcılığında həmdövr həyatın əksi"** adlanır. Onun **"Rəssamın yaradıcılığında sevgi lirikası"** adlanan birinci yarımfəslində rəssamın ağ-qara cizgilərlə lirik motivlərə ovqatyaradıcı bədii tutum vermək bacarığı şərh olunur.

Görkəmli qrafika ustasının sevgi motivlərində həm bədii şərh, həm də bu təqdimata müvafiq seçilən adlar da milli koloriti ilə seçilir. Bu mənada onun "Köhnə Bakı" silsiləsinə daxil olan və ağ-qara cizgilərin işığında çoxqatlı insan yaşantılarına yaddaqalan "bədii güzgü" tutulan "Hacı bulvarda" (1963, 1965), "Qonşunun məhəbbəti" (1965), "Quyu yanında görüş" (1966), "Arvad, gəl barışaq" (1970), "Qoçu İçərişəhərdə" (1970), "Qədeş" (1971), "Aşıq Ələsgər – vurulmuş aşıq" (1971, 1972), eləcə də "Azərbaycan balıqçıları" silsiləsindən olan "Gəl barışaq" (1966), "Əzizim, gəl barışaq" (1966) əsərlərinin adını çəkmək olar.

Sonda qeyd edək ki, XX əsr Azərbaycan dəzgah qrafikasının uğur qazanması uzun müddətli – mürəkkəb bədii-yaradıcı prosesin nəticəsi olmaqla, mahiyyətinə görə novator ruhlu olmuşdur və bunun əldə olunmasında Ə.Rzaquliyevin müstəsna rolu olmuşdur. Bu mənada ən müxtəlif mövzulara müraciətində bədii şərh və ifadə baxımından orijinal görünən rəssam özünün sevgi motivlərində də yeni və maraqlıdır.

**"Ələkbər Rzaquliyevin yaradıcılığında əmək mövzusu"** adlanan II yarımfəsildə rəssamın "Azərbaycan balıqçıları", "Azərbaycan tütünçüləri", "Azərbaycan pambıqçıları", "Tələbələr" və "Azərbaycan xalçaçıları" kimi silsilələrində yeni obrazlar - əmək adamlarının ümumiləşdirilmiş surətləri öz əksini tapmışdır.

Yuxarıda adlarını sadaladığımız linoqravür silsilələrində rəssam əsas diqqətini müasirlərinin – ölkənin qabaqcıl əməkçilərinə yönəltmişdir. Bu isə bilavasitə əmək adamlarının həvəsləndirilməsinə xidmət edirdi. Eyni zamanda rəssamın əmək mövzusuna həsr etdiyi rəsmlər bədii məziyyətinə görə onun nə qədər müasirliyə meylli olduğunun da əyani göstəricisidir.

Ə.Rzaquliyev, onun tanınma nişanına çevrilmiş “Köhnə Bakı” linoqravürləri ilə təsviri sənətdə özünəməxsus yaradıcılığını formalaşdırsa da, “Köhnə Bakı” qrafik silsiləsi ilə müqayisədə bu dövrdə yaradılan əmək mövzulu linoqravür silsilələri bədii zənginliyinə görə daha uğurlu həllini tapmışdır.

“Azərbaycan balıqçıları” silsiləsinə daxil olan “İri balıqların yuyulması” (1961, 1963), “Briqada iri balıqları yuyur” (1962), “İri balıqlardan kürü çıxarılması” (1963) linoqravürləri rəssamın xüsusi müşahidə qabiliyyəti ilə təxəyyülündə canlandırdığı motivlər əsasında çəkilmişdir.

“1961-1963 illərdə Ələkbər Rzaquliyev digər rəssamlarla bərabər tez-tez tütün və pambıq tarlalarına gedir, kənd zəhmətkeşləri ilə tanış olur, çoxsaylı cizgi və etüdlər çəkir”[16]. Sadə əmək adamları ilə görüşü nəticəsində yaranan səmimi ünsiyyətdən ilhamlanan rəssam məhz bu illərdə “Azərbaycan tütünçüləri”, “Azərbaycan pambıqçıları” və “Azərbaycan xalçaçıları” kimi bir-birindən maraqlı linoqravür silsilələrini yaradır.

Rəssam Şəkidə yaşadığı zaman S.M.Kirov adına Tütünçülük kolxozunda çəkdiyi kompozisiyalar digərlərindən dekorativliyi ilə fərqlənir. Bu mənada “Tütünün sapa düzülməsi” (1964, 1966), “Maşından tütünün boşaldılması” (1964), “Tütünün sapa düzülməsi və qurudulması” (1966), “Şəkinin tütünçü qadınları” (1972) kimi “Azərbaycan tütünçüləri” silsiləsinə daxil olan qrafik lövhələri qeyd edə bilərik.

Əməyin gözəlliyi nəticəsində yaranan “Azərbaycan pambıqçıları” silsiləsi rəssamın mühüm silsilələrindəndir. Rəssam bu silsilədə də əvvəlki qravür silsilələrdə istifadə etdiyi bədii metod – üsulla Azərbaycan əməkçilərinin obrazlarını yaradırdı. Bu mənada onun “Briqada pambığı təhvil verir” (1966), “Pambığın qurudulması” (1966), “Xırman” (1966), “Solmaz, çox sağ ol” (1967) əsərlərini qeyd etmək olar.

Rəssamın yaradıcılığında kimyaçı tələbələrə həsr olunmuş “Tələbələr” silsiləsi də özünəməxsusluğu ilə seçilir. Əmək mövzusu baxımından silsiləyə daxil olan “Mikroskop ilə qız” (1963) və “Kimyaçılar” (1963) əsərlərini xüsusi vurğulamaq olar.

---

[16] Həbibova S. Ələkbər Rzaquliyev. “Sərvət”. Bakı: “Şərq-Qərb” Nəşriyyat evi, 2013. S.57.

“Azərbaycan xalçaçıları” silsiləsi də Ə.Rzaquliyevin yaradıcılığında önəmli yer tutur. Silsiləyə daxil olan “Xalça toxuyan qadınlar” (1964, 1972), “Şirvan xalçası” (1972), “Azərbaycanlı xalça toxuyan qadınlar” (1972) linoqravürlərində rəssam xalçaçı qadınların timsalında əmək prosesinin cəlbediciliyinə nail olmuşdur. Sözü gedən linoqravürlərdə təsvirləri gerçəkləşdirən cizgilərin oynaqlığı ilk baxışda bir o qədər də “yüklənməyən” kompozisiyaya hiss olunacaq axıcı dinamiklik bəxş etmişdir. Kompozisiyanı təşkil edən detalların daşıdıqları bədii “yükə” müvafiq təqdimatı da son nəticədə xalça ruhlu əsərlərin uğurunu təmin etmişdir.

Ən nəhayət, fəslin III yarımfəslində **“Rəssamın yaradıcılığında mənzərə və natürmort janrı”**nın bədii şərhinə həsr olunmuşdur. İçərişəhərin qədim və ənənəvi simasının zamanın axarında kifayət qədər dəyişməsinin qarşılığında, Ə.Rzaquliyevin İçərişəhərin ötən əsrin əvvəllərinin görüntüləri ilə bağlı çəkdiyi əsərlərin həm də tarixi əhəmiyyəti vardır. Bu mənada “İçərişəhər” (1960-cı illər), “Bakı. İçərişəhər önündə meydan” (1960), “İçərişəhərdə” (1964), “Qız qalası” (1965, 1967), “Bakı. Suraxanı Atəşgahı” (1968)  və s. lövhələrinin adını çəkmək olar.

Rəssam 1964-cü ildə “Mənim vətənimin nefti” silsiləsini yaradır. Silsiləyə daxil olan əsərlərdən biri “Neft boruları və çənlər” (1964) adlanır. Düzbucağlı kompozisiyanı neft doldurulmuş çənlər parkı və onlarla əlaqə yaradan metal borular, bir də əmək meydanını tərk etməkdə olan neftçilərin təsviri təşkil edir.

Rəssamın 1930-cu ildən başlayaraq müxtəlif illərdə yerinə yetirdiyi və Rusiyanın şimalına həsr olunmuş qrafik lövhələri say etibarilə “Köhnə Bakı”dan azdır. Təbii ki, bunu şərtləndirən başlıca səbəb bu silsilələrdə rəssamın qarşısına qoyduğu yaradıcılıq vəzifəsinin müxtəlifliyidir. Əgər onu doğma şəhərlə bağlı hər şey maraqlandırırdısa, Rusiyada rəssamı daha çox şimalın memarlığı özünə cəlb edib... Bu mənada “Arxangelsk limanı” (1963), “Solovetski monastırının girişi” (1965), “Solovetski monastırı” (1965), “Solovki monastrının həyəti” (1967), “Kremldə qağayılar. Solovetski monastı” (1967), “Solovki monastrının ümumi görünüşü” (1969) və s. qrafik lövhələrin adını çəkmək olar.

Ə.Rzaquliyevin yaradıcılığında yer alan natürmort janrlı əsərlərin də özünəməxsus bədii məziyyətləri vardır. Onun “Meyvələrlə natürmort” (1962), “Balıqlarla natürmort” (1965), “Saxsı qablarla natürmort” (1962), “Mis qablar” (1968), “Azərbaycan musiqi alətləri” (1971) və s. əsərlərində bizi əhatə edən maddi-mədəniyyət nümunələrinə və təbii sərvətlərə özünəməxsus münasibət mövcuddur.

**Nəticədə** dissertasiyanın əsas müddəaları müxtəsər elmi-nəzəri yekunlar şəklində ümumiləşdirilmişdir. Tədqiqat əsasında aşağıdakı nəticələr əldə edilib:

- müstəqil yaradıcılığının ilk vaxtlarından rəssam milli mənəvi-estetik dəyərlərə tapınmışdır;
- Əməkdar rəssamın çoxsaylı linoqravürlərində qədim miniatür ənənələrinə sadiqlik, Qacarlar dövrü incəsənətinə xas olan dekorativlik, sadəlövhlük, əsərlərinin məzmununu ifadə edən millilik açıq-aydın özünü büruzə vermişdir;
- yaradıcılığında milli motivlərə maraq göstərmişdir;
- əmək insanlarının tipik cəhətlərini, şəxsi və ictimai xüsusiyyətlərini göstərməyə müvəffəq olmuşdur;
- rəssamın məişətlə bağlı əsərlərinin məna-məzmun yükü xalqımızın zəngin etnoqrafiyasının üzə çıxarılması kimi düşünülmüşdür;
- məna-məzmun yükünün təqdimatında yumor və ironiyadan bədii vasitə kimi istifadə edilmişdir;
- bədii görkəm almış tiplər vasitəsilə rəssam özünün dərin müşahidə qabiliyyətinə malik olduğunu təsdiqləmişdir;
- tiplərin yaddaqalanlığının təmin olunmasında cizgi təzadlarından uğurla istifadə olunmuşdur;
- sevgi motivləri müəllifin ağ-qara cizgilərlə lirik-poetik duyğuları ifadə etmək və onu duyğulandırıcı mənəvi qaynağa çevirmək bacarığını göstərmişdir;
- müxtəlif illərdə yaradılan mənzərə və natürmortlar rəssamın ayrı-ayrı janrlarda eyni uğurla fəaliyyət göstərdiyini təsdiqləmişdir;
- əşyaların forma-biçimində və bədii tutumunda milli dəyər daşıyıcılığını vurğulamaq istəyi üzə çıxarılmışdır;

- Ələkbər Rzaquliyevin özündə özünəməxsus bədii-estetik və bədii-texniki xüsusiyyətləri hifz edən zəngin bədii irsi XX əsr Azərbaycan təsviri sənətinə daima başucalığı gətirən mənəvi dəyərə çevrilmişdir.

**Dissertasiyanın əsas məzmunu və müddəaları dissertantın aşağıdakı məqalələrində əksini tapmışdır:**


1. Ələkbər Rzaquliyev yaradıcılığında portret janrı // Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi əsərləri, 2016, № 21, s.180-185.
2. Ələkbər Rzaquliyev yaradıcılığında musiqi motivləri // "Harmony" jurnalı, Bakı, 2016, № 15.
3. Köhnə Bakını təzə saxlayan ustad //"Qobustan" jurnalı, Bakı, 2016, № 3. s.46-49.
4. Rəssama şöhrət gətirən "Köhnə Bakı" // "Mədəniyyət dünyası" jurnalı, Bakı, 2016, XXXI buraxılış. S.174-178.
5. Ələkbər Rzaquliyev yaradıcılığında sevgi lirikası // "Mədəniyyət.az" jurnalı, Bakı, 2016, № 9 (307). S.93-95.
6. Певец Старого Баку. СибАК. В мире науки и искусства: вопросы филологии, искусствоведения и культурологии // Сборник статей по материалам LXIII международной научно-практической конференции. Новосибирск: 2016, август. № 8 (63). Стр. 20-27.
7. Пейзаж в творчестве Алекпера Рзакулиева // Paradigmata poznani. THE FOUNDERS. The science-publishing center "Sociosphere-CZ", Academia Retum Civilium – University of Publical and Social Sciences. Prague: 2016. № 4. Стр. 130-133.
8. Страницы из жизни азербайджанского художника в России // Traditional and modern culture: history, actual situation, prospects. Materials of the VI international scientific conference. Prague: 2016, September 20-21. Стр. 78-83.

*Аслан Акпер оглы Халилов*

# ХУДОЖЕСТВЕННЫЕ ОСОБЕННОСТИ ТВОРЧЕСТВА АЛЕКПЕРА РЗАКУЛИЕВА

## Р Е З Ю М Е

Данная диссертация посвящена творчеству заслуженного художника Азербайджана Алекпера Рзакулиева. Диссертация состоит из введения, трех глав, семи подглав, заключения, списка использованной литературы и списка иллюстраций.

Во введении обосновываются актуальность исследования, степень исследованности проблемы, цель и задачи, объект и предмет, методы исследования, рамки исследования, научная новизна, теоретическая и практическая значимость работы, даётся информация об апробации исследования и её структуре.

**В первой главе,** называемой “Поиски тематики и жанра в творчестве Алекпера Рзакулиева” повествуется о становлении Алекпера Рзакулиева как художника, и о его живописных и графических произведениях, созданных в 1920-1930 гг..

**Во второй главе** диссертации, называемой “Серия "Старый Баку” и ее художественные особенности в творчестве Алекпера Рзакулиева”, рассказывается о художественно-эстетических и художественно-технических достоинствах графических произведений и посвящённых типам старого Баку бытовой тематики.

**В третьей главе,** “Отражение современной жизни в творчестве Алекпера Рзакулиева” рассказывается о произведениях посвещённые мотивам любви и труда. В то же время, в главе анализируются написанные художником пейзажи и натюрморты.

В **заключении** подводятся итоги анализа творческих поисков Алекпера Рзакулиева, определяется место художника и созданных им образцов искусства в изобразительном искусстве Азербайджана.

*Aslan Akbar Khalilov*

# ARTISTIC CHARACTERSTICS OF ALAKBAR REZAGULIYEV'S WORK

## S U M M A R Y

The current dissertation is devoted to the work of Azerbaijan's honored artist Alakbar Rezaguliyev. The dissertation consists of introduction, three chapters, seven subchapters, conclusion, references and illustration list.

The introduction contains information about the relevance of the study, the degree of the problem's research, the purpose and objectives, the research methods, the scope of the research, the scientific novelty, the theoretical and practical significance of the work are substantiated, information is given on the approbation of the research and its structure.

**In the first chapter,** entitled "Subject and genre searches in Alakbar Rezaguliyev's work", the story of Alakbar Rezaguliyev's formation as an artist, about created in 1920-1930, which are the artistic heritage of the artist.

**In the second chapter** of the dissertation, named "Old Baku" series and its artistic characteristics in Alakbar Rezaguliyev's work" it is told about the artistic and aesthetic and artistic and technical merits included in a series of graphic works of everyday themes and dedicated to the types of old Baku.

**In the third chapter,** "Reflection of contemporary life in Alakbar Rezaguliyev's work" explains works with motives of love and work. At the same time, the chapter analyzes landscapes and still lifes painted by the artist.

The **conclusion** identifies the place of the created art examples and their author in the compositions of Azerbaijan by analyzing the creative searches of the artist in a generalized form.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКАЯ ГОСУДАРСТВЕННАЯ АКАДЕМИЯ ХУДОЖЕСТВ**

*На правах рукописи*

**Аслан Акпер оглы Халилов**

# ХУДОЖЕСТВЕННЫЕ ОСОБЕННОСТИ ТВОРЧЕСТВА АЛЕКПЕРА РЗАКУЛИЕВА

**Специальность:** 6215.01 – “Изобразительное искусство”

## А В Т О Р Е Ф Е Р А Т

на соискание ученой степени доктора философии
в области искусствоведения

**БАКУ - 2017**